**Azərbaycan Respublikası Nazirlər Kabinetinin**

**2000-ci il 13 iyul tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmişdir**

# Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi

# Limitləri

## I. Ümumi müddəalar

1. Bu sənəd «Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununa və «Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli, 186 nömrəli Fərmanına əsasən hazırlanmışdır və ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi limitlərinin qaydalarını müəyyən edir.

2. Ekoloji təhlükəsizlik — insanın və cəmiyyətin vacib həyati maraqlarının antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsidir.

3. Ekoloji təhlükəsizlik normativləri, ətraf mühitə atılan və axıdılan çirkləndirici kimyəvi maddələrin, zərərli fiziki və bioloji təsirin yol verilə bilən son hədləri hazırlanarkən və müəyyən edilərkən, heyvanlar aləminin və heyvanların yaşayış mühitinin mühafizəsi tələbləri nəzərə alınmalıdır.

4. Hər növ məişət və təsərrüfat mənşəli tullantıların və digər amillərin təsiri nəticəsində heyvanların yaşayış mühitinin qismən və yaxud tamamilə yararsız hala düşməsi ekoloji təhlükə sayılır.

II. Ekoloji təhlükəsizlik normativləri

1. Heyvanların yaşayış mühitinin yararlığı ekoloji təhlükə normativləri əsasında müəyyən edilir.

2. Heyvanların yaşayış mühitinə təsir edən və ekoloji təhlükə amilləri yarada bilən aşağıdakı fəaliyyət növləri qadağan edilir:

a) qatılıq həddi təsdiq edilməmiş, normalardan artıq olan zərərli maddələrin və tullantıların heyvanların yaşayış mühitinə atılması (axıdılması);

b) neft kəmərləri və neft mədənlərindən heyvanların yaşayış mühitinə sızmaların yol verilməsi;

c) sənaye və kənd təsərrüfatı müəssisələrindən, məişət obyektlərindən təmizlənməmiş tullantıların heyvanların yaşayış mühitinə atılması (axıdılması);

ç) qüvvədə olan radiasiya təhlükəsizliyi qaydalarına və normalarına riayət edilmədən tərkibində radioaktiv maddələr olan tullantıların heyvanların yaşayış mühitinə atılması (axıdılması).

3. Heyvanların yaşayış mühitinin ekoloji təhlükəsizlik normativləri (ətraf mühitə atılan və axıdılan çirkləndirici kimyəvi maddələrin, zərərli fiziki və bioloji təsirin yol verilə bilən son hədləri) 1 və 2 nömrəli əlavələrə əsasən müəyyən edilir.

4. «Balıqçılıq əhəmiyyətli su obyektlərinə zərərli təsirin yol verilən normaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli, 146 nömrəli qərarı ilə təsdiq edilmişdir.[8]

III. Vəhşİ heyvanların əldə edİlməsİ lİmİtlərİnİn müəyyən edİlməsİ qaydaları

1. Vəhşi heyvanların əldə edilməsi limitləri müəyyən müddətlərdə ayrı-ayrı növlərin təbii mühitdən götürülmə miqdarını müəyyən edir. Bu limitlər müəyyən edilərkən vəhşi heyvanların təbiətdə olan sayı və təbii bərpa imkanı nəzərə alınmalıdır.

2. Vəhşi heyvanların əldə edilməsi limitlərini müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin uçotu aparılır.

3. Heyvanlar aləmi obyektlərinin istifadəçiləri hər il vəhşi heyvan növlərinin sayının və əldə edilmiş həcminin uçotunu aparmalı, məlumatları Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinə təqdim etməlidirlər.

4. Vəhşi heyvanların əldə edilməsi limitləri heyvanlar aləmi obyektlərinin aparılmış uçotunun yekunlarına əsasən və heyvanların bioloji xüsusiyyətlərini nəzərə almaqla müəyyən edilir. Vəhşi heyvanların əldə edilməsi limitləri müəyyən edildikdə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutunun və Azərbaycan Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun rəyləri nəzərə alınmalıdır. [9]

5. Vəhşi heyvanların əldə edilməsi limitləri aşağıdakı təşkilatlar tərəfindən müəyyən edilir:

a) ov obyektlərinə aid edilmiş vəhşi heyvanlar üzrə — Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən (hər il ov mövsümü üçün).

Ov obyektinə aid edilməyən vəhşi heyvanlara sifariş olduqda — Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən;

b) balıq və digər su bioresursları üzrə:

nərə cinsli balıqlar, kilkə və suiti üçün — Xəzərətrafı dövlətlərin Xəzərin bioloji resurslarının istifadəsi Komissiyasının ayırdığı kvotaya əsasən «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni tərəfindən;

c) axçalı və siyənək balıq növləri üçün (Xəzərdə və daxili su hövzələrində) — «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni tərəfindən (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutunun və Azərbaycan Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun proqnozlarına əsasən);

ç) digər su heyvanları üzrə sifariş olduqda — «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni tərəfindən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutunun və Azərbaycan Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun rəyinə əsasən.

6. Əhalinin sağlamlığını və təhlükəsizliyini mühafizə etmək, kənd təsərrüfatı və başqa ev heyvanlarını xəstəliklərdən qorumaq, heyvanlar aləminə, onların yaşayış mühitinə və iqtisadiyyata zərər vurulmasının qarşısını almaq məqsədi ilə bəzi vəhşi heyvanların sayı Səhiyyə Nazirliyinin və Kənd Təsərrüfatı Nazirliyinin təkliflərinə və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin rəyinə əsasən, zərurət olan limit həddində Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni tərəfindən tənzimlənə bilər.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3027-3029.**